The consideration of the types of temperament has a practical meaning for the teacher. Apply an individual and differentiated approach to each student's specificity, optimize the teaching pace, choose the method, objectively evaluate, as well as their speed of operation, it is possible to adjust and make changes in relation to training difficulties.

In this thesis, we have focused on the difficulties that teachers face in teaching and learning activities for primary school children if they do not take into account the types of temperaments.

***Keywords*:** primary school children, training difficulties, temperament types

**XÜLASƏ**

Kiçikyaşlı məktəblilərin təlim çətinliklərinin psixoloji səbəblərini araşdırdıqda məlum olmuşdur ki, çətinliklərin bir qismi onların fərdi-psixoloji xüsusiyyətlərinin, xüsusilə, temperament tiplərinin nəzərə alınmamasından qaynaqlanır. Koqnitiv, emosional-iradi, kommunikativ proseslər onların temperament tiplərinə uyğun təzahür edir. Emosional-iradi sferada, davranışda, idrak proseslərində, psixoloji və fəaliyyət tempində olan fərdi fərqlər bununla izah olunmalıdır.
Məktəb təcrübəsində təlim tapşırıqlarını cəld və ləng yerinə yetirən, hövsələsi çatmadığından tapşırığın təlimatını sonadək oxumayan və tapşırığı sonadək yerinə yetirməyən, tapşırığın icrasından imtina edən kiçikyaşlı məktəblilərə rast gəlirik. Daxili fəaliyyətdən xarici fəaliyyətə və əksinə keçid (ekstraversiya, introversiya), fikrən modelləşdirmə fleqmatik, xolerik, sanqvinik, melanxoliklərdə fərqli təzahür edir. Təəssüflər olsun ki, müəllimlər onların hər birindən psixi fəaliyyətin eyni səviyyədə tənzimlənməsini və fiziki icrasını, eyni daxili və xarici fəallıq gözləyirlər.
Temperament tiplərinə görə kiçikyaşlı məktəblilər təlim fəaliyyətini asan, çətin, asta, sürətli yerinə yetirirlər. Müəllim-şagird, şagird-şagird münasibətlərinin qurulmasına temperament tiplərinin təsiri böyükdür. Həmçinin təlimdə iş forması (fərdi, cüt, qrup, kollektiv) seçilərkən temperament tiplərinin nəzərə alınması vacibdir. Çünki kiçikyaşlı məktəblilərin hamısı eyni dərəcədə əməkdaşlıq və rəqabət şəraitində fəaliyyət göstərə bilmirlər.
Təlim fəaliyyəti zamanı çətinliklərlə qarşılaşdıqda onlar sinir sisteminə uyğun reaksiya verirlər. Onların təlim çətinliklərinə dözümlülüyü də fərqlidir. Yüksək çətinlik səviyyəsində qurulan tapşırıqlar zəif sinir sistemi olanlarda ləngimə, dözümsüzlük, güclü sinir sistemi olanlarda oyanma, çətinlikləri dəf etmək istəyi yaradır. Tədricən sadədən-mürəkkəbə doğru tapşırıqların çətinlik dərəcəsini artırmaq məsləhətdir.
Temperament tiplərinin nəzərə alınmasının müəllim üçün praktik əhəmiyyəti vardır. Şagirdlərin hər birinin xüsusiyyətinə uyğun fərdi və diferensial yanaşıb optimal tədris tempi, üsulu seçmək, obyektiv qiymətləndirmək, həmçinin onların iş sürətinə, təlimdəki çətinliklərə münasibətinə düzəliş və dəyişiklik etmək mümkündür.
Biz bu tezisdə temperament tiplərini nəzərə almadıqda müəllimlərin tədris, kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində yaranan çətinliklərə diqqətinizi yönəltdik.
***Açar sözlər**: kiçikyaşlı məktəblilər, təlim çətinlikləri, temperament tipləri*

## 1. GİRİŞ

Kiçikyaşlı məktəblilərin təlimində çətinlik yaradan psixoloji amillərdən biri də onların fərqli temperament tiplərinə malik olmasıdır. Belə ki, onların sinir sisteminin bütün xüsusiyyətləri temperament tiplərində əks olunur. Tədqiqatımızın əsas məqsədi təlim prosesində temperament xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyini qeyd etmək, həmçinin nəzərə alınmadığı təqdirdə kiçikyaşlı məktəblilərin və müəllimin fəaliyyətində yaranacaq təlim çətinliklərinə diqqətinizi yönəltməkdir.
Fərdi-psixoloji xüsusiyyətlərdən irəli gələn təlim çətinlikləri endogen çətinliklərə aiddir. Burada 2 halı nəzərdən keçirək: Kiçikyaşlı məktəblilər temperament xüsusiyyətlərinə uyğun olaraq təlim fəaliyyətində psixi və fiziki aktivlik göstərirlər. İkinci bir tərəfdən həmin xüsusiyyətlərin müəllim tərəfindən nəzərə alınmaması nəticəsində təlim prosesində problemlər yaranır. Burada 2-ci halın təsiri ilə yaranan 2 problem haqqında xüsusi qeyd edəcəyik:

1) Kiçikyaşlı məktəblilərin temperament xüsusiyyətlərinin nəzərə alınmaması nəticəsində onların sinir sistemi mənfi təsirlərə məruz qalır və ən əsası sinir sisteminin müxtəlif problemlərinə yol açır;
2) Müəllimlər öz tədris fəaliyyətində onlara fərdi və diferensial yanaşmadıqları üçün tədrislə bağlı problemlər yaranır.

"Pedaqoqları ən çox narahat edən məsələlərdən biri də təlim materiallarını çətin qavrayan, yaxud təlim şəraitinə alışa bilməyən uşaqlarla fərdi işin təşkilidir. Psixologiyada göstərilən çətinliklər bir çox səbəblərlə, həmçinin uşağın əqli funksiyalarının mərhələli vəziyyəti ilə xarakterizə olunur. Belə təzahürlər beyin mərkəzlərinin aşağı səviyyəli iş fəaliyyəti ilə izah edilir" [7, səh 62].

Gördüyümüz kimi müəllim onların sinir sisteminin quruluşundan irəli gələn spesifik xüsusiyyətləri nəzərə almadıqda sinifdəki bütün şagirdlərdən eyni reaksiya, davranış, rəftar, münasibət, psixi və fiziki aktivlik, ünsiyyət, çeviklik dözümlülük və s. tələb edir. Bunların təsirilə onların təlimində bir sıra çətinliklər baş qaldırır.

Bildiyimiz kimi diqqətini uzun müddət mərkəzləşdirmək və ona tapşırılan tapşırığı sona qədər yerinə yetirmək hər birində uğurlu və eyni səviyyədə alınmır. Belə fərqlər həmçinin hafizə, nitq, təfəkkür, təxəyyül, hiss və iradə sahəsində, ümumilikdə psixi fəaliyyətdə aydın nəzərə çarpır.

"Uşağın adət etdiyi iş tempinin dəyişdirilməsi planlı olmalıdır. Burada ilk növbədə aydınlaşdırılmalı olan məsələ temperamentdir" [7, səh. 64].

## KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TEMPERAMENT XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRƏ ALINMAMASININ ONLARIN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ

Kiçikyaşlı məktəblilərin temperament xüsusiyyətləri onların psixi və fiziki fəaliyyətinin dinamikliyi haqqında müəllimlərə zəruri informasiyaları verir. Bu informasiyalar müəllimə öz tədris fəaliyyətini səmərəli şəkildə reallaşdırmağa imkan verir. Ancaq pedaqoji təcrübədə onların hər birindən idrak proseslərinin sürətli icrasını, sürətli qərar qəbulunu, tez yada salma, asan yadda saxlama, çevik məntiqi təfəkkür, sürətli nitq, sürətli analitik-sintetik fəaliyyət və s. tələb edən müəllimlərə də rast gəlirik.

Ekstraversiya və introversiya göstəriciləri (psixi və fiziki fəaliyyətin aktivliyi və passivliyi, ünsiyyətə açıq olma və qapalılıq, təəssüratlara açıq olub-olmaması və s.) onların təlim fəaliyyətinin icrasına əsaslı şəkildə təsir edir. Həmçinin xarici amillər ekstravert və introvertlərin təlim fəaliyyətinə fərqli təsir edir. Təlimdə müəllim-şagird, şagird-şagird arasında emosional münasibətlərinin yaxınlıq (qarşılıqlı hörmət, anlama, inam, əməkdaşlıq) və uzaqlıq (özünəhörmət, anlamamaq, şübhə, rəqabət) dərəcəsi də öz növbəsində onların fəaliyyətinə təsir edir.

Oynaqlıq və rigidlik əlamətləri də kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə özünəməxsus təsir edir. Plastiklik xüsusiyyətlərinə malik olan şagirdlərdə qıcıqlanma və uyğunlaşma daha yüksək, mücərrəd ideyalar yüksək olur, xəyal dünyalarının genişliyi təxəyyüllərinin zənginliyindən xəbər verir. Rigid xüsusiyyətlərə sahib olan şagirdlərdə psixi və fiziki fəaliyyət zəif, çətin, süst şəkildə təzahür edir, rasional-məntiqi təfəkkür üstün olur, rasional izaha ehtiyac duyurlar.

Kiçikyaşlı məktəblilərin müəllimin fəaliyyət və ünsiyyət tempinə uyğunlaşması onların temperament xüsusiyətləri ilə şərtlənir. Bu baxımdan müəllimin nitqinin, fəaliyyətinin sürətli, yaxud çox asta olması onun anlaşılmasını çətinləşdirir. Başqa sözlə, müəllimin iş tempi məktəblinin iş sürətinə müvafiq olmur.

Təlim fəaliyyətinin iradi və emosional tənziminin həyata keçirilməsi sahəsində də fərdi fərqlər vardır. Fəaliyyətin yüksək iradi tənzimi üçün lazım olan keyfiyyətlər (cavabdehlik,

məsuliyyət, borc hissi, dəqiqlik, səliqəlilik, təkidlilik, dözümlülük, inam, səy göstərmək) hər birində inkişaf etməmişdir. Müsbət iradi xüsusiyyətlər təlim fəaliyyətinin uğurlu icrasına şərait yaradır, mənfi iradi xüsusiyyətlərin çoxluğu isə təlim fəaliyyətinin iradi tənzimini bir qədər çətinləşdirir.

Təlim fəaliyyətinin emosioal tənziminə onların hissi sferasında nəzərə çarpan fərdi fərqləri əsaslı təsir edir. Bu dövrdə onların fəaliyyəti daha çox şəraitlə şərtləndiyindən onların təlim fəaliyyətinə xarici amillər daha çox təsir edir. Təlim prosesində onların sinir sisteminə neqativ təsir edən xarici amilləri təhlil edək:

- Əlverişsiz psixoloji təlim şəraiti;
- Neqativ psixopedaqoji təsir, müəllimin pedaqoji fəaliyyət və ünsiyyətinin xarakteri ilə bağlı nöqsanlı hallar;
- Tədrisin bütün şagirdlər üçün eyni üsulla təşkil edilməsi, onların dərketmə üsullarının nəzərə alınmaması;
- Qeyri-obyektiv qiymətləndirmə- onların psixi və fiziki imkanlarının, biliyinin düzgün qiymətləndirilməməsi;
- Təlim materiallarının ağır məzmunu, çoxluğu və s.

Onların hər biri onlara yönəlmiş təsirləri eyni cür qəbul etmir, eyni cür reaksiya, davranış, münasibət göstərmirlər. Onların hissi xüsusiyyətlərinə nəzər saldıqda görürük ki, bir qrup şagirdlərdə inam, məsuliyyət hissi zəif olur, çətinliklə qarşılaşdıqda öhdəsindən gələ bilmirlər, uğursuzluq yaşadıqda asanlıqla həvəsdən düşürlər, gərginlik şəraitində fəaliyyət göstərə bilmirlər, çətinliklə qarşılaşdıqda məyus olur, hətta bəziləri fəaliyyətin icrasından uzaqlaşmaq istəyirlər.

Sinifdə cavab verərkən tələsən, hövsələsiz, yerindən cavablandıran, bildiyi halda cavablandırmaqdan imtina edən, gec, asta cavablandıran, tapşırığı gec, ancaq doğru həll edən, tez, ancaq qismən həll edən şagirdlərə rast gəlinir. Müəllim tez həll edən şagirdə yüksək, bir qədər gec həll edən şagirdə aşağı qiymət verdikdə onların psixikasında yaranan halları təsəvvür etmək o qədər də çətin deyil. Bu cür qiymətləndirmə onların öz psixi və fiziki iş tempini, daxili imkanlarını günahlandırmasına və özünü daha sürətlə yerinə yetirməyə məcbur etməsinə, ən pis halda ədalətsizliyi duyub müəllimdən, təlimdən emosional uzaqlaşmasına səbəb olur.

Müəllim təlim zamanı iş formalarını seçərkən onların temperament xüsusiyyətlərinə uyğunluğu nəzərə almalıdır. Sinifdəki uşaqların hər biri cüt, qrup, kollektiv fəaliyyət zamanı eyni dərəcədə fəallıq göstərmirlər. Ümumi işə görə cavabdeh olan, məsuliyyət daşıyan şagirdlərlə yanaşı, onlar arasında kollektivçi ruhda olmayan, kollektiv işlərdən boyun qaçıran, fərdiyyətçi şagirdlərə də rast gəlinir.

## 2. KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TEMPERAMENT TİPLƏRİNİN NƏZƏRƏ ALINMAMASINDAN İRƏLİ GƏLƏN TƏLİM ÇƏTİNLİKLƏRİNİN PSİXOLOJİ TƏHLİLİ

Aparılmış psixoloji tədqiqatlar bir daha sübut edir ki, təlim fəaliyyətinin səmərəliliyinə təsir edən amillərdən biri də fərqli temperament xüsusiyyətlərinin təlim prosesində nəzərə alınmamasıdır. Kiçikyaşlı məktəblilərin təlim çətinliklərinin psixoloji təhlilini verərkən biz mütləq onların temperament xüsusiyyətlərinə və yarana biləcək təlim problemlərinə toxunmalıyıq.

Kiçikyaşlı məktəblilərin təlimində təzahür edən çətinliklərə misal olaraq 2 fərqli temperamentə sahib olan (xolerik və melanxolik) şagirdlərin fəaliyyətini müqayisə edək: Onların hər ikisinə yüksək çətinlik səviyyəsinə malik tapşırığın verilməsini təsəvvür edək. Çətinliyə və əldə edilmiş uğursuzluğa münasibət xolerik və melanxolikdə necə təzahür

edəcək? Təbii ki fərqli. Yaxud dərsə hazırlıqlı olduğu halda cavab verməkdən boyun qaçıran məktəblilərə də rast gəlirik. Müəllimdə elə təəssürat yaranır ki, şagird dərsə hazır deyil. Belə uşaqlarda daxili fəaliyyətdən xaricə fəaliyyətə və əksinə keçid asan baş vermir, daxildə fikirləşdiklərini xarici nitqlə ifadə etməkdə çətinlik çəkirlər. Burada psixikanın daxilə, yaxud xaricə yönəlişliyinin onların təlim nəticələrinə, özlərini ifadə etmələrinə təsirini aydın görürük.

Kiçikyaşlı məktəblilərin temperament tiplərinin psixoloji xarakteristikasını verərkən temperamentin aktivlik xassəsindən çıxış edib onların təlim fəaliyyəti zamanı qarşılaşdıqları daxili və xarici çətinlikləri necə aradan qaldırmasını izah edə bilərik. Burada nəzərə alınmalı olan əsas məsələ psixi fəaliyyətin aktivlik göstəricilərinin (sürət, temp, ritm, intensivlik, plastiklik, dözümlülük) hər birində fərqli səviyyədə təzahür etməsidir. Buna uyğun olaraq təlimdə çətinliklə qarşılaşdıqda onların hər biri temperament tiplərinə uyğun reaksiya, davranış, münasibət, dözümlülük nümayiş etdirirlər. Davamlı çətinliklərin olması onların sinir sisteminin müxtəlif problemlərinə, zehni və emosional yüklənməyə, gərginliyə yol açır.

Təlimdə mövcud olan çətinliklər onların hər birinə sinir sisteminin tipinə uyğun olaraq təsir edir. Belə ki, güclü, müvazinətli sinir sisteminə sahib olan şagirdlər təlimdəki çətinliklərə qarşı dözümlü olduqları halda, zəif, müvazinətsiz sinir sisteminə malik olanlarda isə dözümsüzlük, yüklənmə, yorulma, sinir sisteminin müxtəlif problemləri müşahidə olunur. Həmçinin onların ali psixi funksiyaları sinir sisteminə uyğun tənzimlənir. Belə ki, oyanıq sinir sistemi tipinə sahib olan məktəblilərdə hər şeyi bilmək, hər şeylə maraqlanmaq, həssaslıq, zəngin, dolğun təsəvvürlər, xəyalpərəstlik, müxtəlif rolları yerinə yetirməyə istəkli olmaq, plastiklik və s. özünü göstərir. Rigid xüsusiyyətlərə sahib olan şagirdlərdə isə bu xüsusiyyətlərin əksi müşahidə olunur.

Kiçikyaşlı məktəblinin psixi fəallıq, koqnitiv, emosional, iradi sahəsində ciddi fərdi fərqlər vardır. Psixi proseslərin sürəti, fikri əməliyyatlara sərf edilən vaxt hər birində fərqlidir. Məsələn, tez (sanqvinik), gec (melanxolik), tam (fleqmatik), qismən (xolerik) problemi həll etmə xüsusiyyətlərinə görə seçilirlər.

Bildiyimiz kimi şagirdlərin diqqətini dərsə cəlb etmək onların diqqətinin xüsusiyyətlərinin inkişaf səviyyəsindən asılıdır. Məsələn, sanqvinik hər şeylə maraqlanır, diqqətin seçiciliyi üstün olur, yenilikləri tez sezir, ancaq diqqətinin davamlılığı haqqında bu sözləri demək olmaz. Hövsələsiz və yeni təəssüratlara açıq olduğu üçün uzun müddət eyni işlə məşğul olmağı bacarmır. Müəllimlər tez-tez onların diqqətini mərkəzləşdirməli olurlar.

Yüksək çətinlik səviyyəsində qurulmuş tapşırıqlar (proqram) hər bir məktəbliyə onun malik olduğu sinir tipinə uyğun təsir edir. Belə ki, sinir sistemi zəif olanlarda ləngimə, qorxu, dözümsüzlük, sinir sistemi güclü olanlarda oyanma yaradır. Ümumiyyətlə, güclü sinir sistemi tipinə sahib olan məktəblilərə təlim fəaliyyəti zaman qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmək bacarığı xassdır. Onlar çətinliklərlə qarşılaşdıqda çətinlik onlar üçün şərti qıcıq olub motivasiya mənbəyinə çevrilərək onlarda oyanıqlıq yaradır, inadla çətinliyin üzərinə yeriyir, mübarizə aparırlar.

Sanqvinik kiçik məktəblilər zirək, qüvvətli, müvazinətli tiplərdir, onlar üçün aktiv psixi və fiziki fəaliyyət, yüksək fəallıq, işgüzarlıq, sürətli hərəkətlər və nitq tempi, çevik təfəkkür, asan ünsiyyətə girmək bacarığı, öz qüvvəsinə inam, güclü oyanma və ləngimə qabiliyyəti, hər təsirə reaksiya vermək, emosional sahədə stabillik, hisslərin asanlıqla bir-birini əvəz etməsi, təlim şəraitinə asanlıqla uyğunlaşma, bir psixi və fiziki fəaliyyətdən digərinə asan keçid, yüksək ekstravertlik xassdır.

Fleqamatik kiçik məktəblilər qüvvətli, müvazinətli, asta tiplərdir, onlarda oyanma və ləngimə ağır cərəyan edir, çətinliklə biri digərilə əvəz olunur, bu səbəblə də onların psixi fəaliyyətində durğunluq yaranır. Onlar üçün rigidlik, ləng düşünmə, diqqətin çətin keçirilməsi, şəraitə çətinliklə uyğunlaşma xassdır, aktivlik aşağı, introvertlik üstündür. Fleqmatiklərin hissi sahəsi

stabildir, uğursuzluğu adi qarşılayır, dözümlüdür, başladığı işi sonadək yerinə yetirirlər, ancaq fəaliyyətə dərhal başlamırlar.

Xolerik kiçik məktəblilər qüvvətli, müvazinətsiz tiplərdir, onlar üçün təlim şəraitinin tələblərinə qarşı mənfi münasibət, sürətlə düşünmək, cəldlik, tələskənlik, iradəlilik, inadkarlıq, dözümlülük, neyrotizm xassdır. Onlarda senzivitivlik aşağıdır, ekstravertlik yüksəkdir, psixi və fiziki aktivlik, diqqətin keçirilməsində zəiflik, yüksək rigidlik həm koqnitiv, həm motivasiya, həm də affektiv sahədə müşahidə olunur. Oyanma və ləngimə bir-birinə çətin keçir, hövsələsiz olduqlarından təlimatları axıradək dinləmir, təlimatlarla diqqətlə tanış olmur, ona görə də çox vaxt tapşırıqları səhv və qismən yerinə yetirirlər.

Melanxolik kiçik məktəblilər üçün senzitivlik, neyrotizm, introvertlik, sinir proseslərinin zəif cərəyanı, zəif oyanma və ləngimə, ləngimənin üstünlüyü, tez təsirlənmək, fəaliyyət və ünsiyyətin bir qədər asta, zəif icrası, aşağı özünəinam, qərarsızlıq, cəsarətsizlik, qapalılıq, əməksevərlik xassdır. Kiçik uğursuzluqlar belə onlarda əhval-ruhiyyənin pozulmasına səbəb olur, əlverişsiz təlim situasiyalarında özlərini itirirlər. Həmçinin utancaq, qorxaq şagirdlər ön planda olmağı sevmir, sinif qarşısında çıxış edərkən çətinlik çəkirlər.

## 3. NƏTİCƏ

Nəticə olaraq qeyd edə bilərik ki, təlim fəaliyyətində onların temperament xüsusiyyətlərinin nəzərə alınması onların təlimində yarana biləcək bir qisim çətinliklərin qarşısının alınmasını mümkün edəcəkdir. Biz bu tezisdə temperament xüsusiyyətlərinin nəzərə alınmaması nəticəsində müəllimin didaktik, kiçikyaşlı məktəblilərin öyrənmə fəaliyyətində yaranan çətinlikləri göstərdik. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti ali sinir fəaliyyətinə uyğun həyata keçir. Bir qismi təlimdən zövq alır, bir qismi üçün təlim yorucu, çətin fəaliyyət sayılır. İstənilən halda təlimdəki çətinliklər, xüsusilə ekzogen amillərin təsiri ilə yaranan çətinliklər onların sinir sistеminə mənfi təsir edir.

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində temperament tiplərinin nəzərə alınmasının böyük psixoprofilaktik əhəmiyyəti vardır. Belə ki həmin xüsusiyyətləri nəzərə almaqla onların təlimində yaranacaq çətinliklərin bir qisminin, həmçinin sinir sistemində yaranacaq problemlərin qarşısını almaq və onların təlimini daha effektiv təşkil etmək mümkündür. Təbii ki, şagirdlərin hansı temperament tipinə aid olduqlarını müəyyənləşdirmək məktəb psixoloqunun əsas vəzifəsidir. Məktəb psixoloqu onların xarakterik xüsusiyyətləri, onlara yanaşma tərzi haqqında vaxtaşırı müəllim və valideynlərə nəzəri və praktik biliklər verməlidir. Həmçinin müəllimin öz peşəsinə psixoloji hazırlıq məsələsinə diqqət daha da artırılmalıdır.

**Müəllimlər üçün tövsiyələrimiz:**

- Siz sinifdə bir-birinin tam əksi olan şagirdlərlə işləməli olursunuz. Onların fərqli temperament xüsusiyyətlərini nəzərə alaraq optimal tədris tempi, tədris üsulu müəyyənləşdirin;
- Onların hamısından eyni səviyyədə psixi və fiziki fəallıq, funksionallıq tələb etməyin;
- Onların xüsusiyyətlərini nəzərə alaraq onları fəallığa sövq etməyin əlverişli üsullarından istifadə edin;
- Hər bir məktəblinin özünəməxsus psixoloji və fəaliyyət tempinin olduğunu unutmayın;
- Onların koqnitiv, emosional, iradi sferasında fərdi fərqlərin olmasını nəzərə alaraq onlara fərdi və diferensial yanaşın;
- Pedaqoji təsiriniz düşünülmüş olmalıdır, çünki pedaqoji təsir psixoloji təsiri də özündə birləşdirir;
- Əxlaqi söhbətlər aparmaqla onlarda lazım olan müsbət xüsusiyyətləri inkişaf etdirin, mənfiləri isə aradan qaldırılmağa çalışın;

- Həyəcanlı olduğu üçün vaxtında cavab verə bilməyən uşaqların ilk öncə həyəcanının keçməsi üçün uyğun texnikalardan istifadə edin və özünü hazır hiss etdikdə cavab verməsini xahiş edin. Belə yanaşma onun təşvişə düşməsinin qarşısını alacaq;
- Unutmayın ki, xoleriki - həddən artıq acılamaq, fleqmatiki - tələsdirmək, sanqviniki - ünsiyyətdən məhrum etmək, melonxoliki - təqib etmək olmaz;
- Onlar arasında əməkdaşlıq münasibətlərinin formalaşdırılması məqsədilə cüt, qrup, kollektiv işlərdən istifadə edin. Cütlərin, qrupların tərkibini müəyyənləşdirərkən onların xüsusiyyətlərini hökmən nəzərə alın, həmçinin mütəmadi cütlərin, qrupun tərkibini dəyişdirin, vaxtaşırı onları birlikdə, eyni qrupda fəaliyyət və ünsiyyətə cəlb edərək onların bir-birinə uyğunlaşmaqları üçün şərait yaradın;
- Sizin üçün əsas meyar işin kəmiyyəti yox, keyfiyyəti olmalıdır;
- Siz onların sinir sisteminə məqsədyönlü, planlı, ardıcıl, sistemli şəkildə təsir etməklə onlarda sinir sisteminin gücünü inkişaf etdirə bilərsiniz. Məsələn, sadədən mürəkkəbə doğru tapşırıqların çətinlik səviyyəsini artırmaqla onların sinir sitemini gücləndirə bilərsiniz;
- Onları obyektiv qiymətləndirin, düzgün olmayan davranışına görə biliyinə verilən qiyməti aşağı salmayın;

## 4. MÜZAKİRƏ

Ümumiyyətlə, kiçikyaşlı məktəblilərin sinir sisteminin fəaliyyətinə valideynlərin düzgün olmayan təsiri, müəllimin düzgün olmayan psixopedaqoji təsiri, onların səhvlərinə, bacarıqlarına, idraki imkanlarına, xüsusilə, temperament xüsusiyyətlərinə qarşı pedaqoji dözümsüzlüyün olması, əlverişsiz psixoloji iqlim, müəllim-şagird, şagird-şagird münasibətlərində olan emosional uzaqlıq, onların demoqrafik problemlərinin nəzərə alınmaması, dərs cədvəlinin tərtibi, tənəffüs üçün şəraitin yaradılmaması, yuxu rejimi, qidalanma, xəstəlik, istirahət, təlim yükünün çoxluğu, proqramın ağırlığı və s. kimi xarici amillər neqativ təsir etdiyini gördük.

Burada əsas diqqəti kiçikyaşlı məktəblilərin çətin təlim situasiyalarında özünəinamı qoruya bilmək, özünəarxayınlıq, özündənəminlik, təlimdə olan müxtəlif real və xəyali maneələrə baxmayaraq fəaliyyətini davam etdirmək və uzaqlaşmaq, təlim zamanı qarşılaşdığı idraki, hissi, iradi maneələrə qarşı dözümlülük, təkidlilik, zehni və fiziki gərginliyə davamlılıq, onların hər birinin uzun müddət fəaliyyətdə olmaq bacarığı ilə bağlı fərdi fərqlərinə yönəltdik.

Məlumdur ki, ekstravert və introvertlərdən eyni daxili və xarici fəallığı gözləmək doğru deyil. Təlimdə ekstravertlərlə müqayisədə introvertlər daha çox uğur qazanırlar, çətinliklərə qarşı daha dözümlülük, əzmkarlıq nümayiş etdirirlər.

Proqramın ağırlığı onların sinir sistemini zəiflədir. Təlim yükünün çoxluğu zehni, emosional yüklənməyə səbəb olur. Xüsusilə, yüksək çətinlik səviyyəsində qurulmuş təlim tapşırıqları zəif və orta səviyyəli öyrənənlərdə ləngiməyə səbəb olur. Məsələn, təlim prosesində zəif sinir sistemi tipi olan şagirdə icrası cəsarət, inam, iradə tələb edən tapşırıqlar verməklə onlarda güclü sinir sistemi tipi formalaşdıra bilərik. Yüksək çətinlik səviyyəsində qurulmuş tapşırıqlardan əsasən bu məqsədlə doğru istifadə olunmalıdır.

## ƏDƏBİYYATLAR


1. Atkinson ve Hilgard Psikolojiye giriş.
2. Baxşəliyev Ə., Əlixanova G. Təlim fəaliyyətində temperament tiplərinin nəzərə alınması. Metodik vəsait. Bakı, ADPU-nun nəşriyyatı, 2019, 156 s.
3. Çələbiyev N.Z. Uşaq psixologiyası. Pedaqoji ali və orta ixtisas təhsili məktəbləri tələbələri üçün dərs vəsaiti. Bakı, 2005, 341s.
4. Əliyev B., Cabbarov R. Təhsildə şəxsiyyət problemi. Bakı, YYSQ, 2014, 229 s.
5. Əliyev R.İ. Psixologiya. Dərs vəsaiti. Yenidən işlənmiş və əlavələr edilmiş 2-ci nəşri. Bakı, Nurlan, 2008, 352 s.
6. Əmrahlı L.Ş., Əliyeva L.M. Təlim fəaliyyəti və psixi inkişaf. Metodik vəsait. Bakı, 2014, 175 s.
7. Əmrahlı L.Ş. Psixoloji xidmət. III kitab. Psixodiaqnostika. Bakı, MBM, 2014, 292 s.
8. Əzizov Q. Psixologiya. Dərs vəsaiti. Təkrar nəşr. Bakı, Mütərcim, 2016, 328 s.
9. Ümumtəhsil məktəblərində psixoloji xidmətin aktual problemləri. Bakı: "AD" MMC, 2016, 320 s.
10. Childpsy.ru
11. American Psychological Association website

# TÜRK QƏHRƏMANLIQ DASTANLARINDA SINAQ MOTİVİ VƏ SINAQ NÖVLƏRİNİN ELMİ KONSEPTUAL SXEMİ

**Xalidə Mete**
Filologiya üzrə fəlsəfə foktoru.
AMEA, Folklor İnstitutunun elmlər doktoru hazırlığı üzrə doktorantı, Azərbaycan, Gəncə.

## Xülasə

Bütün türk dastanları mübarizələrdən, sınaqlardan ibarətdir. İstər bir xalqın, bir tarixin, bir soyun yaradılması, istər vətənin düşməndən qorunması, istərsə də qəhrəmanın öz butasına qovuşması onlara "hədiyyə" olaraq verilməmişdir. Bu qələbələr, zəfərlər üçün qəhrəman min bir əziyyətə qatlaşmış, sınaqlardan keçmişdir. Təbii ki, bu sınaq növləri arasında da həm bir bağlılıq, həm də bir fərqlilik hiss olunur.

Sınağın müxtəlif variantlarının, növlərinin sistemləşdirilməsi həm türk xalqları arasında, həm bu xalqların yaratdıqları dastanlar arasında, həətta eyni adlı dastanın müxtəlif versiyalarını yaratmış xalqlar arasında güclü tarixi, mədəni, psixoetnik bağlılığın olduğunu aşkara çıxarır. Eyni zamanda bu xalqların dünya duyumundakı bənzərliyin üzə çıxarılmasına, bir dastan qəhrəmanından ilhamlanaraq digər dastan qəhrəmanının yaradılmasına, bu ədəbi nümunələrin bir-birinə təsiri mexanizmlərinin aşkarlanmasına kömək edir.

Təbii ki, az qala on min yaşı olan türk epos mədəniyyətinin zəngin tarixini, təşəkkül və tərəqqi mərhələlərini təyin etmək, ümumiləşdirmək ağıla və təsəvvürə sığmaz. Tədqiqata sadəcə ilkin və ən qədim eposların izlərini özündə mühafizə edən və əlimizdə müəyyən hissələri olan arxaik türk eposu - "Yaradılış", "Alp Ər Tonqa", "Törəyiş", "Şu", "Ərgənəkon", "Köç", "Oğuz Xan"dan bizim zəmanəmizə gəlib çatmış epos fraqmentlərindən başlayaraq, "Kitabi-Dədə Qorqud", "Alpamış", "Manas", "Ural Batır", "Koblandı Batır", "Koroğlu", bir neçə Şor və Tıva qəhrəmanlıq dastanları çəlb olunmuş, ilk dəfə bu dastanlarda qəhrəmanın sınağının növləri, qəhrəmanlıq dastanlarında sınaq motivi, sınaq formalarının transformasiyası, sınağ motivinin variasiya problemləri araşdırılmış, sınaq növləri ümumiləşdirilmişdir.

**Açar sözlər:** dastan, sınaq, qəhrəmanlıq, məhəbbət, variasiya, motiv

# THE TRIAL MOTIF IN TURKISH HEROIC SAQAS AND SCIENTIFIC KONCEPTUAL SCHEME OF TRIAL TYPES

Khalida Mete
PhD in Philology.
Postdoctoral student of Azerbaijan National Academy of Sciences, Institute of Folklore, Azerbaijan, Ganja.

## Abstract

All Turkic dastans consist of confrontations and tests. Either creating a new kind of one people, or protecting the homeland from enemies, or reuniting the hero with his buta was not given to them for free. In order to win, the hero pass through many tests and difficulties. Naturally, there is a connection and difference between the tests.

Systematizing various variants and types of tests reveals strong historical, cultural, psychoic connection between both turcish peoples and between dastans created by these peoples, even betwen peoples created different version of the same named dastans. It helps to find out simmilarity in world understanding, to create one epic hero inspired from another dastan hero, to find the influence mechanisms of literal samples to each other.

Of course, it is difficult to imagine and generalize the rich history of the Turkic epic culture, the stages of its formation and development, which are almost ten thousand years old. The study covers the traces of the earliest and oldest epics, starting with the attraction of the most archaic fragments of the Turkish epic, “Yaradylysh”, “Alp Er Tonga”, “Tereyish”, “Shu”, “Oguz Kagan”, “Bozkurt”, “Ergenekon”, “Goch”, which have survived to the present day, to “Kitabi-Dede Gorgud”, “Alpamysh”, “Manas”, “Ural Batyr”, “Koroglu”, several heroic epics of Shor and Tuva and other types of epics. For the first time in these epics, the types of trials of heroes, the motives of trials in heroic epics, the transformation of the forms of trials were investigated, in general, the problems of variation of the motives of the trials were investigated and their types were generalized.

**Keywords:** epic, test, love, heroism, variation, motive

**Giriş.**

Tarixdə türklər qədər çoxsaylı qəhrəmanlıq eposları yaratmış ikinci bir xalq yoxdur. M.Ergin hər millətin bir milli dastanı olduğu halda, türklərin milli dastanlarının bu cür çoxluğunu onların milli həyatının və tarixi macəralarının bir dastana sığmaması ilə əlaqələndirmişdir (Ergun 1988:5-6). Bir dastana sığmayan milli həyat və macəralar isə türkün tarixinin nə qədər qədim olduğunu şərtləndirir. AMEA-nın müxbir üzvü Tofiq Hacıyev deyirdi: “...qəhrəmanlıq dastanı tarixin şifahi dərsliyidir” (Hacıyev 2001:20).

Bu dastanların hər biri – istər qəhrəmanlıq, istər məhəbbət dastanları - sınaqlar, mübarizələr üzərində qurulub. B.Proppun sözləri ilə desək, dastanlar sınaqlardan, mübarizələrdən ibarətdir (Пропп 1955:5) O sınaqlar ki, dastan qəhrəmanının öz ideyası, öz amalı, öz məqsədi uğrunda mübarizələrini özündə ehtiva edir.

Tədqiqat zamanı, dastanlarda sınaq motivi araşdırılarkən əvvəlcə ümumtürk dastanlarının qısa xarakteristikası aparılmış, dastanların hansı şəkildə tədqiqata cəlb olunacağının plan-prospekti müəyyənləşdirilmişdir. Bunun üçün türk dastanları ilk olaraq islamdan əvvəl və islamdan sonra yaradılmış dastanlar olaraq bölünmüş, hər dövrə aid olan dastanların növləri və formaları təyin olunmuşdur. Bu bizə hansı tarixi dövrlərdə hansı növ dastanlara üstünlük verildiyi, həmin dövr türk cəmiyyətinin arzuları, idealları, o cümlədən problemləri, mübarizələri, sınaqları haqqında söz deməyə imkan yaratmışdır. Bu vasitə ilə biz ilk dəfə islamdan əvvəl və islamdan sonra yaradılan dastanların hansı tipologiya ilə inkişaf etdiyi və

həmin dastanlarda sınağın variasiyalarını təyin edə bilmişik.




**İşin gedişatı.** İslamdan əvvəlki türk dastanlarında adətən dünyanın yaranması, ilk insanın yaradılması, ilk tayfanın, ilk soyun, ilk dövlətin yaradılması ilə bağlı olduğundan bu dastanlarda sınaq bədii dillə desək, dünyanın, kainatın sınağıdır. Bu dastanlardakı sınaq ilk insanın özünü tanıması, anlaması, ilk xalqların, ilk hökmdarların sınağı kimi qiymətləndirilə bilər. Biz bu sınağı türk qövmünün əlləri, ayaqları kəsilmiş yeganə uşağının təkbaşına mübarizəsi, qurdun vasitəsilə yenidən türkün törəyib artması, böyüməsi, çoxalması şəklində, bir qədər də mübaliğəli şəkildə desək, türkün sınağı şəklində qiymətləndirə bilərik. Lakin “Yaradılış”, “Köç”, “Bozqurd”, “Ərgənəkon”, “Oğuz Kağan” da daxil olmaqla islamdan əvvəlki dastanlarda sınaq motivi haqqında sadəcə ümumiləşdirilmiş sözlər ifadə etmək mümkündür. Artıq ilk qəhrəmanlıq dastanları meydana gəldikdən sonra türk dastanlarında sınaq motivi haqqında söz demək imkanı yaranır. Başqa sözlə desək, qəhrəmanlıq dastanlarının meydana gəlməsi ilə sınaq motivi gündəmə gəlmişdir. İslamdan sonra yaradılan dastanlarda da biz bunu daha bariz şəkildə görə bilirik. Bu dastanları müxtəlif alim və tədqiqatçılar müxtəlif cür qruplaşdırmışdır. Kimisi məhəbbət və qəhrəmanlıq, kimisi məhəbbət, qəhrəmanlıq və ailə məişət, kimisi də qəhrəmanlıq və dini dastanlar şəklində təsnifləşdirmişdir. Bütün bu qruplaşmaları nəzərə alaraq türk dastanlarını əsasən 2 formada təsnifləşdirməyi məqsədəuyğun hesab edirik.



Dastanların bu cür qruplaşdırılması bizə türk dastanlarının tarixi inkişafını, hansı dövrlərdə hansı növ dastanlara üstünlük verilməsini, dastanların bir növünün digər növünə keçidinin səbəb və formalarını izləməyə imkan verir. Biz bu yolla dastanlarda sınağın variasiyalarını, tarixi qarşılaşmada bir formadan başqa formaya, qəhrəmanlıqdan məhəbbət dastanlarına, o cümlədən qəhrəmanlıq sınaqlarının məhəbbət sınaqlarına transformasiyasının səbəblərini meydana çıxara bilmişik.

Biz tədqiqatda sadəcə qəhrəmanlıq dastanlarında sınağın variantları üzərində dayanacağıq. Təbii ki, qəhrəmanın sınağı deyərkən, ilk növbədə qəhrəman kimdir, sınaq nədir suallarına cavab tapmaq lazımdır.

**Epik qəhrəmanın kimdir?** Dastanlarda qəhrəman tipi, qəhrəman motivi, onun idaeyaları haqqında çox saylı tədqiqatlar aparılmış, maraqlı nəticələr alınmışdır. Həmin tədqiqatlar müqayisə olunaraq ümumiləşdirilmə aparılmış, türk dastan qəhrəmanının xarakterik xüsusiyyətləri müəyyənləşdirilmişdir.

- Epik qəhrəman möcüzəvi doğuluşa malikdir.
- Epik qəhrəmanın soyu tanrı, yarıtanrı və ya soylu nəsildən gəlir.
- Adətən evin tək uşağıdır.
- Hələ kiçik yaşlardan öz yaşıdlarından seçilir, xüsusi bir qəhrəmanlıq göstərərək igidlik zirvəsinə qalxır.
- Qəhrəman, igid, cəld, cevik, ağıllı və ədalətlidir, əsla xəyanət etməz.
- Xalqın mənafeyini şəxsi mənafeyindən üstün tutandır.
- Soylu bir ata və möcüzəvi silaha sahibdir.
- Ən yaxın dostu, sirdaşı, köməkçisi sevdiyi qız və ya müdrik həyat yoldaşıdır.
- Ən çətin məqamlarda yalnızdır və və dara düşdüyündə, fövqəltəbii güc ona yardım edir.
- Xalqını, tayfasını, vətənini, elini, ailəsini düşməndən qoruyur, dastan boyu bir çox sınaqlara məruz qalsa da, demək olar ki, dastanın sonunda tam qələbə onundur.

**Övladsızlıq sınağı.** Türk xalqlarının tarixini daim mübarizələr, müharibələr təşkil etdiyindən, qədimlərdən başlayaraq at belində, həyat sınaqlarında, vətən, ailə, torpaq, din uğrunda mübarizələr dastan qəhrəmanını bir çox sınaqlarla üz-üzə qoyur. Qəhrəmanlıq dastanları əsasən mübarizələrdən ibarətdir. İstər qəhrəmanlıq, istərsə də məhəbbət dastanlarında süjet ilk olaraq yaşlı ailələrin övladsızlıq sınağı ilə başlayar. Bəzən 80-90-100 yaşlı ər-arvadın övladsızlıq sınağının nəticəsi olaraq a)nəzir-niyaz paylamaq, b)dərviş verən sehrli almanı yemək, c)söz vermək, əhd eləmək, ç)yuxu görmək, yuxuda gördüklərinə əməl etməklə möcüzəvi şəkildə dünyaya gələn qəhrəmanlar elə doğulduğu gündən möcüzəvi gücə sahib olurlar.

- Bu qəhrəman ana bətninə bir qurtum sudan, su üzündə bir parça köpükdən, göydən düşmüş dolu dənəsindən, dərvişin ağzının suyundan, sehrbazın sehrindən, bir yarpaqdan, bir gülü iyləmək, bir alma, bir narı, başqa bir meyvəni yeməkdən, bir nəfəsdən və sairədən düşər.
- Tanrılar, yarıtanrılar, gün, ay, günəş, dəniz və digər kultlar qəhrəmanın ya anası, ya atası olaraq bilinər.
- Yer üzündəki yaşlı qarı-qocalara dua, alqış, and, xeyir işlər görmək sayəsində sehrli alma və ya yuxu vasitəsilə xüsusi güclərə malik olan şəxslər tərəfindən "hədiyyə" olunar.
- Dastanlarda ən az istifadə olunan motiv isə övladlığa götürmədir.

**Ad alma sınağı.** Dastanlarda qəhrəmanın doğumundan sonra ilk sınağı ad alma ilə bağlıdır. Türk qəhrəmanlıq dastanları üçün xarakterik olan ad alma xüsusi sınaqlardan keçmək ilə mümkündür. Bir ada sahib olmaq üçün sınaqdan keçən gəncin gücünün ölçüsü mifık-fəlsəfi yöndən kosmoqonik təsəvvurlər və inanc sistemi ilə, əsatir görüşləri ilə sıx bağlı olmuşdur. Əgər belə olmasaydı, advermə motivi dastan-söylənc mövzusuna, başqa sözlə, kitaba gəlib cıxa bilməzdi. Çünki kitab tarixən ilkin yaranışında Qudsi-Etibarlı rəmzləri,

işarələri, tamğaları (damğaları), simvolları ifadə etmək üçün yaranmışdı (Kərimbəyli Əli. http://www.folklor.az/arasdirmalar/xakas.pdf). Sözü - qəhrəmanın adını qutsal edən əsas şərt isə budur:

a) ad səmavi xarakterlidir;

b) adı verən şəxs isə öz dövrünün peyğəmbərliyini təcəlli edən şamandır (Kərimbəyli Əli. http://www.folklor.az/arasdirmalar/xakas.pdf).

Türk qəhrəmanlıq dastanlarında qəhrəman ad almaq üçün bu sınaqlardan keçir:

- 15-16 yaşına çatan oğlan (bəzən bu yaş daha az ola bilər ) vəhşi heyvanla döyüşür, ona qalib gəlir, ad qazanır.
- Darda qalan kimsələrə, malı talan olunmuş tacirlərə və digərlərinə yardım edir, talan olunmuş malını geri qaytarır, məzlumun haqqını bərpa edir.
- Kafir və ya öz dinindən olan pəhləvanla döyüşür, el içində ad-san qazanmış igidləri məğlub edir.
- Xalq üçün təhlükə yaradan mövüzəvi varlıqlara qalib gəlir.
- Ox atır, qılınc çalır, hünər göstərir və sairə.

Beləliklə də, adsız qəhrəman çox kiçik yaşlarda qeyri-adi bacarıq nümayiş etdirməklə ad qazanır. Artıq həddi buluğa çatmış qəhrəmana ad vermək üçün xüsusi mərasim düzənlənir. Burda öz gücünü nümayiş etdirən qəhrəmana bacarığına müvafiq ad verilir. Ad el ağsaqqalı, din xadimləri, seçilmiş insanlar tərəfindən verilir. Beləliklə, qəhrəman əməli həyatı ilə adını qazanır, sonra həyatı boyu öz adını doğrultmağa çalışır. Hansı ki, çox zaman ad özündə qəhrəmanın mənşəyini, yurd-yuvasını, atının rəngini xarakterizə etdiyindən sosial statusludur. Məsələn, Parasarın Bayburd hasarından sıçrayıb uçan boz atlı Bamsı Beyrək kimi (Kitabi-Dədə Qorqud 2004: 211).

Mürəkkəb ad-titullar qədim türklərin bir neçə sosial institutunun təsiri ilə yaranmışdır. Bu ad-titullar mifoloji simvolikanı qoruduğundan arxaik dastanlarda qəhrəman ona verilən ada uyğun hərəkət edir, ada layiq yaşayır. Bugac da, Beyrək də, Pis-Tumzux da, Altın-Arığ da, Taptaan-Molat da, Cicil xan oğlu Tibet xan da bütün epik həyatı boyu öz adlarını doğruldurlar.

Bu advermə uşaqlıq dövründən gənclik dövrünə keçidin bədii əks-sədasıdır. Eyni aktın Altay-Sayan xalqlarının dastanlarında, özbək, qazax, qırğız folklorunda, bütün türk nağıllarında təkrarlanması, bunun etnoqrafik baxımdan gənc döyüşçü cərgəsinə qəbul mərasiminin qalığı kimi yozulmağına imkan verir. Belə mərasimdə gənc döyüşçüyə adla yanaşı at, qılınc və kəmər də verirdilər. Bu funksiyanı yenə də ağsaqqal döyüşçü, tayfanın başçısı, ağ şaman və başqa hörmətli adamlar yerinə yetirirdilər.

**Qəhrəmalıq dastanlarında qəhrəmanın sınağı.** Ad aldıqdan sonra isə qəhrəmanın digər sınaqları başlayır. Tədqiqatda ilk dəfə türk qəhrəmanlıq dastanlarında sınaqlar, mübarizələr cüzi fərqlər istisna olunmaqla aşağıdakı formada qruplaşdırılmışdır:






Bu sınaqların hər biri ayri-ayrılıqda geniş tədqiqat mövzusudur. Onların içərisində evlənəcəyi qız üçün sınaqlardan keçmə xüsusilik təşkil edir.

**Qəhrəmancasına elçilik motivi.** Qəhrəmanlıq dastanlarında qəhrəmanın evlilik formalarını aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

- Hələ doğulmamış beşikkəsmə edilir.
- Düşmən qızı və ya müharibə zamanı qənimət yolu ilə əldə edilən qızlarla evlənir.
- Ata, qardaş, yaxın dost qəhrəman üçün qız seçir.
- Qəhrəman evlənəcəyi qızı özü seçir. Görür və aşıq olur.
- Qız özü qəhrəmana namə göndərir və ya qəhrəman qızın sorağını eşidib dalınca gedir.

Elçilik yolunda qəhrəman:

- Evini tərk etməlidir.
- Uzaq yol qət etməlidir.
- Yolda başına gələcək bəlalardan qorunmalıdır.
- Qıza yaxınlaşmaq üçün yol tapmalıdır.
- Qızı inandırmalıdır.
- Qızın ata-anası, bəzən qardaşı ilə mübarizə aparmalıdır.
- Bir çox hallarda qızın əvvəldən adaxlısı və ya talibi vardır ki, onunla döyüşüb onu məğlub etməlidir.
- Bəzən böyük bir qoşuna, bəzən vəhşi heyvanlara, bəzən ən güclü pəhləvana qalib gəlməlidir. Qızın, atasının, yaxud vəziri və digərlərinin hiylə dolu ağıl sınaqlarından keçməlidir.
- Çox nadir hallarda rast gəlsək də, bəzən artıq başqasına verilən qadınını geri qaytarmaq üçün mübarizə aparmalıdır.

Qəhrəman evlilik üçün həm qəhrəmanlıq, həm də ağıl sınaqlarından keçməlidir.




**Sınaqlardan ugurla çıxmaq üçün qəhrəmana yardımçı edən varlıqlar.** Bu sınaqlarda qəhrəman hər zaman qələbə qazanır. Bu qələbələr təbii ki, qəhrəmanın qələbəsidir. Lakin bu işdə onun yardımçıları vardır. Onlardan bəziləri qəhrəmanın qəhrəmanlığına güc qatan canlı varlıqlar və nəsnələr, bəziləri isə doğmaları, əzizləri, ilahi varlıqlar, tanrı və

yarımtanrılardır. Bunların içərində bəlkə də birincisi qəhrəmanın ayrılmaz dostları, qəhrəmanı qəhrəman edən, bu mübarizələrdə qəhrəman qədər qələbəyə şərik olan atı və silahıdır. Bunlar qəhrəmana o qədər yaxın və əzizdir ki, çox vaxt atlarının adı qəhrəmanla birgə çəkilir, bəzən də atları da qəhrəmanla birgə ölür və bəzi yerdə qəhrəmanla birgə basdırılırlar. Qəhrəmanın özü qədər atları da soylu, şəcərəsi bilinən, çox vaxt da möcüzəvi doğuluşa malikdir. Qəhrəmanın silahı haqqında da eyni sözləri ifadə etmək olar. Bundan əlavə qəhrəmana istər qəhrəmanlıq, istərsə də buta sınaqlarında yardım edən bir sıra motivlər vardır ki, onları belə ümumiləşdirmək mümkündür: at motivi, silah motivi, yuxu motivi, qırx motivi (xüsusilə qırx ərən), yada daşı motivi, mağara motivi, işıq motivi və sairə.

Bundan başqa qəhrəmanın bu sınaqlardan uğurla çıxmasında əsas yardımçılarından biri daim onun yanında olan qəhrəman qadın motividir ki, həmin qadınlar:

- Çox zaman möçüzəvi doğuluşa və qeyri-adi gücə malikdir.
- Türk dastan qəhrəmanı olan qadınlar fədakar anadır.
- Ailəsini, elini, obasını, həyat yoldaşını qorumağı bacaran qəhrəmandır.
- Türk qadın qəhrəmanının basılmaz gücü ilə bərabər əsrarəngiz gözəlliyi var.
- Türk qadını gələcək həyat yoldaşını seçmək hüququna malik sərbəst qadındır.
- Türk qadını gələcək həyat yoldaşının igid, qəhrəman olması ilə yanaşı, həm də aqil, ağıllı olmasını tələb edir. Bunun üçün də o evlənəcəyi kişini qəhrəmanlıqla bərabər, həm də ağıl sınağından, zehni sınaqlardan keçirir. Bu sınaqlardan çıxdıqdan sonra onu həyat yoldaşı olaraq qəbul edir. Bu sınaqlardan keçə bilməyən şəxs onun həyat yoldaşı ola bilməz!
- Türk qadın qəhrəmanı həyat yoldaşının məsləhətçisi, yolgöstərənidir.
- Türk dastan qəhrəmanı qadın həm də sehr, əfsun yolu ilə öz həyat yoldaşını baş verə biləcək hadisələrdən xəbərdar edir, uzaqgörənliyi ilə gələcəkdə atacağı addımları planlaşdırmağa köməklik göstərir.
- Türk dastan qəhrəmanı qadın sədaqətli, vəfalı həyat yoldaşı, “Manas” dastanındakı kimi evin taleyinin, şərəf və namusunun qəyyumu, qoruyucusudur.
- Türk ailəsində qadın böyük nüfuza malikdir. Türklərdəki qadın anlayışının həm islamdan əvvəl, həm də islamdan sonrakı türk dastanlarında davam etdiyi görülməkdədir.

Ümumilikdə isə qəhrəmana sınaqlardan uğurla keçməsi üçün yardım edən şəxsləri 3 qrupda birləşdirmək olar:

- Ailədən olan yardımçılar
- Ailədən kənarda yardım edən adi insanlar
- İlahi mənşəli köməkçilər.

Ailədən olan köməkçilər yuxarıda da qeyd etdiyimiz kimi adətən həyat yoldaşı, ana, bacı, ailədən kənarda yardım edən adı insanlar isə həmişə qəhrəmanın yanında yer alan qırx igid, yolda rast gəldiyi xoş niyyətli və çox zaman yaşlı bir qadın və ya kişidir.

Dastanlarımızda əsas köməkçilər ilahi mənşəli varlıqlardır ki, bu məbudlar adətən nurani qoca, ağsaqqal, ixtiyar, Xızır, Xıdır, İlyas, Xıdır Zində, Rabiə Xatun, Qaracaoğlan, dərviş, Şahi-Mərdan, Əli, Məhəmməd peyğəmbər olaraq qarşımıza çıxır. Bu ilahi varlıqlar, haqqdan gələn xüsusi özəlliklərə sahib şəxslər həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarının qəhrəmanlarına müxtəlif sınaqlardan keçərkən yardım edir, darda, çətində qalan, köməyə ehtiyacı olan qəhrəmanlara həm məsləhətləriylə, həm də əməli yardımları ilə kömək edirlər.

**Tədqiqatın nəticəsi, elmi yeniliyi və təkliflər.** Beləliklə, tədqiqat işində ilk dəfə ümumtürk dastanlarında qəhrəman və sınaq problemi ortaya qoyulmuş, sınağın növləri, variasiyaları, sınaqda iştirak edən tərəflər, sınaqda qəhrəmana yardım edən şəxslər və

nəsnələri müəyyənləşdirməklə ümumtürk dastanlarında sınaq motivinin paradiqması müəyyənləşdirilmiş, bu mövzuya yeni elmi baxış nümayiş olunmuşdur.

**Ədəbiyyat siyahısı:**

***Azərbaycan dilində:***

1. Azərbaycan dastanları (2005). 5 Cilddə. Bakı: Lider nəşriyyatı.
2. Cəfərli Məhərrəm (2001). Dastan və mif. Bakı: Elm, 2001, 320s.
3. Kitabi-Dədə Qorqud (2004). Əsil və sadələşdirilmiş mətnlər. Bakı: “Öndər nəşriyyatı.
4. Quliyeva Ruziyə (1993). Azərbaycan məhəbbət dastanlarının bədii özünəməxsusluğu (dissertasiya işi). Bakı.
5. Quliyev Elman (2014). Türk xalqlari ədəbiyyatı (təkmilləşdirilmiş və yenidən işlənilmiş nəşr). Bakı: Apostoroff.
6. Hacıyev Tofiq (2001). “Dədə Qorqud kitabı” Oğuz tarixinin yazılı dərsliyi kimi yaxud; dastanımızın həcmi haqqında // DQ. Bakı, №1, s.20. s.20
7. Pirsultanlı (Paşayev) Sədnik (2009). “Novruz-Qəndab” və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi”. Bakı: Azərnəşr.
8. Rzasoy Seyfəddin (2007). Oğuz mifi və Oğuznamə eposu. Bakı: Nurlan.
9. Təhmasib Məhəmməd Hüseyn (1972). Azərbaycan xalq dastanları /Orta əsrlər/. Bakı: Elm.

***Türk dilində:***

10. Acaloğlu Arif. (2005). “Türk Destan Geleneğinin Tarihi Kökenlerine Dair” // Modern Türklük Araştırmalan Dergisi, C. 2, S. 4.
11. Duymaz Ali (2001). Kerem ile Aslı Hikâyesi Üzerinde Mukayeseli Bir Araştırma. Ankara.
12. Ergun Metin (1988). Birinci baskının ön sözü //Oğuz Kağan. İstanbul.
13. Ergun Metin (2006). Şor Kahramanlık Destanları, Ankara: Akçağ Yayınları.
14. Ergun Metin, Aça Mehmet (2004). Tıva Kahramanlık Destanları I. Ankara: Akçağ Yay.
15. Ergun Metin, Aça Mehmet (2005). Tıva Kahramanlık Destanları II. Ankara: Akçağ Yay.
16. Köksal Hasan(1984). Battalnamelerde Tip ve Motif Yapısı. Ankara: Kültür ve Turizm Bakanlığı Millî Folklor Araştırma Dairesi Yayınları.
17. Sakaoğlu Saim, Duymaz Ali (2002). İslamiyet Öncesi Türk Destanları, İstanbul: Ötüken Yayınları.
18. Şahin Halil İbrahim (2012). Türk destanlarindaki aile algisi üzerine bir değerlendirme //Karadeniz Araştırmaları, Sayı 33, s.117-138.
19. Türker Ferah (2010). Güney Sibirya Türk Destanlarında Kahramana Yardımcı Unsurlar. Yüksek Lisans Tezi. Ankara: Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Edebiyatı Anabilim Dalı.
20. Yoldaşoğlu Fazıl (2000). Alpamış Destanı. Aktaran: A. Canpolat ve A. Öz. Ankara: AKM Yay.
21. Yıldız Naciye (2009). “Türk Destancılık Geleneği” //Modern Türklük Araştırmaları Dergisi, Cilt 6, Sayı 1, s. 4-11.

***Rus dilində:***

22. Нарты. Ред.: А.И.Алиева (1994). Москва: Восточная Литература.
23. Пропп В.Я (1955) Русский героический эпос. Ленинград.
24. Орус-оол Светлана Монгушевна (2001). Тувинские героические сказания (текстология, поэтика, стиль). Москва.

***İnternet materialları:***

25. Kərimbəyli Əli. Xakas Folkloru və “Altın-Arığ” dastanı. 40s. http://www.folklor.az/arasdirmalar/xakas.pdf

26. О древнейшем типе героя в эпосе тюрко-монгольских народов Сибири" (Sibirya ve Türk Halklarının Eposlarındaki En Eski Kahraman Tipi Hakkında) http://www.ruthenia.ru/folklore/meletinsky13.htm [23. 06. 2006]
27. http://www.elibrary.az/docs/jurnal/jrn2015_482.pdf